# İDXALIN MALİYYƏLƏŞDİRİLMƏSİ

Hörmətli Cənablar,

Siz xaricdən mal (iş, xidmət) alırsınızmı? Xarici avadanlıq, nəqliyyat vasitələri, tikinti texnikası almaq, ofis binası (ambar, ticarət) otağı tikmək və eyni zamanda faiz dərəcələrinin fərqində qazanmaq və uzun müddətə vəsait qazanmaq istəyirsinizmi? Bank Respublika Sizə **sənədli akkreditiv** açmağı təklif edir. Sənədli akkreditiv vasitəsilə Siz maliyyələşmənin qiymətini azaldıb uzun müddətə vəsait alacaqsınız. Bu necə baş verir? Tutaq ki, Siz konfet istehsalı xəttinin alınması ilə bağlı müqavilə bağlamısınız. Sizin hesablamanıza görə, bu xəttin xərci 4 ilə çıxacaq və istehsalçı ilə müqavilləni imzalamısız. İndi isə, kredit götürmək və xətti "diri pulla" ödəmək əvəzinə Bank Respublika Sizin istehsalçının ünvanına akkreditiv açır və istehsalçı tərəfindən Sizin şirkətə xəttin çatdırılması sübut edən və Sizin şirkəti çatdırılan xəttin keyfiyyəti qane etməsi barədə sənədlər toplusu təqdim olunmaq şərti ilə xətt üzrə ödəməyə zəmanət verəcək.
Sizin üçün bu ikiqat sərfəlidir, çünki Siz, demək olar ki, zəmanətlə istədiyiniz avadanlığı alırsınız, istehsalçı isə bu hesablaşma formasını qəbul edəcək, çünki bu forma ona çatdırılmış avadanlığa görə ödənişə zəmanət verir. İstehsalçı sənədləri hara təqdim etməlidir? O, sənədləri Bank Respublika ilə maliyyələşdirməni birgə həyata keçirəcək xarici banka təqdim edir. Xarici bank akkreditiv üzrə təsdiq də əlavə edə bilər (yəni mal göndərənə zəmanət verir ki, əgər avadanlıq çatdırılsa, ödəmə isə olunmasa, hər halda xarici bank ödənişi həyata keçirəcək. Mal göndərən üçün bu cibində pul deməkdir.

1) Beləliklə, xarici bank sənədləri yoxlayacaq və bu sənədlər akkreditivin şərtlərinə uyğundursa, mal göndərənə öz hesabından pulu ödəyəcək, Bank Respublikaya müəyyən müddətə maliyyələşmə verərək. Bununla yanaşı Bank Respublika Sizin şirkətdən pulu dərhal tələb etməyəcək, əksinə Sizə xarici bank tərəfindən verilən müddətə qədər möhlət verəcək. Bu akkreditiv üzrə maliyyələşmədir (sonradan maliyyələşmə). Akkreditiv özü isə 3-4 həftəlik açıla bilər (təchizatçıya malın göndərilməsi və sənədlərin təqdim olunması üçün lazım olan müddətə). Akkreditiv üzrə sənədlərin təqdim olunmasından sonra maliyyələşdirmə başlanılır. Bank Respublika bu maliyyələşməni sərfəli faiz dərəcəsi ilə 3-illik müddətə təşkil edə bilər. Siz nə qazanırsınız? Kreditlə müqayisədə bu daha ucuz maliyyələşmədir, lazımı avadanlığın çatdırılmasının zəmanəti verilir və, ən əsas, Sizə tələb olunan 3-illik maliyyələşmə. Akkreditiv üzrə borcu vaxtdan qabaq ödəmək olarmı? Bəli, əlbətdə olar!

İndi isə bir qədər rəqəmlərdən danışaq. Maliyyələşmənin qıyməti pulun qıyməti (LIBOR və ya EURIBOR dərəcəsi), xarici bankın və Bank Respublikanın komissiyalarından müəyyən olunur. İndi biz artıq əminliklə deyə bilərik ki, avroda maliyyələşmə Sizin şirkətə illik 9%-dan baha oturmayacaq, ABŞ dolları ilə maliyyələşmə isə – illik 11%-dən artıq olmayacaq. Hesablaşmanın akkreditiv forması Sizin təchizatçı üçün çox sərfəlidir, çünki bu praktiki olaraq "pul cibinizdə" deməkdir və bundan başqa bir sıra xarici banklar Sizin təchizatçını akkreditivin girovu ilə maliyyələşdirə bilər (ona elə bu avadanlığın istehsalı üçün pul verə bilər). Biz Sizə akkreditiv üzrə xərcləri öz təchizatçınızla (mal göndərənlə) bölməyi tövsiyyə edirik. Niyə axı təchizatçı ona xidmət göstərilən bankın komissiyalarını ödəməsin? Ona bunu təklif edin!

2) Beləliklə, Siz akkreditiv vasitəsilə mal (iş, xidmət) almaq qərarına gəlmisiniz. Akkreditiv açmaq üçün Bank Respublika Sizin şirkət üçün kreditləşmə üzrə limit müəyyən etməlidir və tənimetmənin standart növlərini tərtib etməlidir. Zəhmət olmasa, Xəqani küçəsi 21 ünvanda yerləşən bizim ofisə yaxınlaşın və Sizin şirkətin sonuncu hesabat dövrü üçün balansı gətirin.

Bundan sonra iki iş günü ərzində Siz Bank Respublika-dan akkreditivin buraxılmasının təşkili barədə kommersiya təklifi alacaqsız, bu təklifdə faiz dərəcəsi və maliyyələşmənin müddəti qeyd olunacaq.

3) Əgər Siz kredit komitəsindən keşmisiniz, akkreditiv Sizin şirkət üçün kredit limitinin müəyyən olmasından və bütün sənədlərin toplanmasından sonra üç iş günü ərzində açılacaq. Akkreditivin minimal məbləği – 100 min ABŞ dollarıdır, qüvvədə olma üzrə minimal müddəti isə - 1 ay, postmaliyyələşmənin minimal müddəti – 6 aydır.

Bank Respublikanın akkreditivləri ən yaxşı xarici bankları tərəfindən təsdiq olunur (praktiki olaraq hər bir ölkədə), öz təchizatçınızdan soruşun hansı bankları o özü seçir və ya biz Sizə işlədiyimiz bankların siyahısını təqdim edəcəyik.

Bank Respublikanın əsas iş prinsipi – akkreditiv üzrə bütün detalları onun açılmasından ÖNCƏ razılaşdırmaq, çünki çox vaxt açılmış akkreditivə dəyişikliklərin edilməsi artıq pul aparır. Buna görə akkreditivin açılmasından ÖNCƏ biz Sizinlə, Sizin təchizatçı və xarici bankla bütün detalları razılaşdırırıq.

Bank Respublika xarici ölkələrdə 100 bankdan artıq bankla bilavasitə işləyir, buna görə də akkreditiv bir neçə dəqiqə ərzində xarici bankda alınacaq. Bundan başqa, xarici banklarla bilavasitə münasibətlər nəticəsində Siz kənar bankların komissiyalarından qaça bilərsiniz, bu da çox mühümdür. Biz akkreditivləri daha tez və daha az xərclərlə açırıq!

4) Bizim akkreditiv açma üzrə təcrübəmiz var. 2004-cü ildən başlayaraq Bank Respublika 100-dən artıq xarici akkreditivlər açıb, bizim xarici banklardakı kredit xəttlərimiz (60 mln.dollardan artıq) bizə istənilən sövdələşmə aparmaq və bizim Müştərilər üçün sərfəli şərtlərlə maliyyə almaq imkanı verir.

Bank Respublika Moody's Investors Service Agentliyinin B2/NP səviyyəli Beynəlxalq kredit reytinqini alıb, biz Beynəlxalq öhdəliklər bazarında tanınırıq (2008-ci ildə Bank Respublika 80 mln.dollardan artıq həcmdə ikitərəfli və sindikatlaşdırılmış kredit cəlb edib), biz xarici ölkələrin iri bank-müxbirləri ilə əməkdaşlıq edirik – Commerzbank AG, Raiffeisen Bank, Wells Fargo Bank, N.A., BCP və s. Biz tanınırıq və bizə etibar edirlər!

Bank Respublikada akkreditiv açmanın əsas üstünlükləri:

- müştəri ilə fərdi iş
- xarici ticarət sövdələşmənin bütün mərhələlərində pulsuz tamformatlı müşayiət
- xarici banklar və Sizin xarici oyundaşlarınızla operativ qarşılıqlı əlaqə

Beləliklə, akkreditiv vasitəsilə maliyyələşmə almaq üçün yeddi sadə addım:

- Bu vərəqlə tanış olmaq
- Bizə Sizin şirkətin maliyyə hesabatını təqdim etmək
- Beynəlxalq maliyyənin təşkili üzrə on-layn sifariş blankını doldurmaq
- Bank Respublikadan kommersiya təklifini almaq
- Kredit komitəsindən keçmək
- Sizin təchizatçı ilə akkreditivi razılaşdırmaq və akkreditiv açmaq
- Malı (avadanlığı) almaq, həmçinin uzun müddətə daha ucuz maliyyələşmə

**Əlaqə:** Bank Respublika. Beynəlxalq Əlaqələr Departamenti
Telefonlar: +994 12 598 08 00, faks: +994 12 598 08 80 Elnarə Sərxanova,
Elektron poçtun ünvanı ElnaraS@BankRespublika.az